**~~“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi və~~ Azərbaycan Respublikasında yanğın təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında** [1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI [2]

“Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 619 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

~~1. “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə” təsdiq edilsin (1 nömrəli əlavə).~~

~~2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin mərkəzi aparatının strukturu təsdiq edilsin (2 nömrəli əlavə).~~

~~3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin dövlət büdcəsindən maliyyələşdirilən mərkəzi aparatının ştat sayı “150” vahid, onun tabeliyində olan yerli bölmələrinin ştat sayı isə “6185” vahid, cəmi “6335” vahid müəyyən edilsin.~~

~~4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun idarəetmə orqanlarının saxlanmasına büdcədə ayrıca sətirdə smeta ayırmaları nəzərdə tutsun.~~

5. (Çıxarılıb) [3]

6. (Çıxarılıb) [4]

7. “Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş“Təhlükəsizliyi təmin ediləcək məhsulların siyahısına” “Yanğın təhlükəsizliyi sahəsində məcburi qaydada sertifikatlaşdırılan məhsulun və xidmətlərin siyahısı” əlavə edilsin (5 nömrəli əlavə).

~~8. “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sisteminin yanğından mühafizə və qəza xilasetmə xidməti haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 8 oktyabr tarixli 546 nömrəli qərarında:~~

~~1, 2, 3, 5, 7, 9-cu bəndlər qüvvədən düşmüş hesab edilsin;~~

~~4, 6, 8, 10 və 11-ci bəndlərindəki “Baş Yanğından Mühafizə və Qəza-Xilasetmə İşləri İdarəsi” sözləri “Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi” sözləri və 4-cü bəndin axırıncı sətrindəki “Yanğından Mühafizə vəQəza-Xilasetmə Elmi Tədqiqat və İnformasiya Mərkəzi” sözləri “Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Elmi Tədqiqat və Ekspertiza Mərkəzi” sözləri ilə əvəz edilsin.~~ [5]

9. Bu Qərar imzalandığı gündən qüvvəyə minir

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 iyul 1998-ci il
№ 151

~~**ƏLAVƏ N 1**~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında**
**Ə S A S N A M Ə**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi insanların həyatını və sağlamlığını, milli sərvəti yanğınlardan qorumaq, Azərbaycan Respublikasında yaşayışməntəqələrinin, eləcə də təşkilati-hüquqi formasından asılı olmayaraq idarələrin, müəssisələrin, təşkilatların yanğın təhlükəsizliyinə dövlət nəzarətinin təşkili və həyata keçirilməsi məqsədi ilə yaradılmışdır.

2. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi özünün fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyanı, Azərbaycan Respublikasının qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əmr və göstərişlərini, digər normativ aktları və bu Əsasnaməni rəhbər tutur.

3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi — Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi aparatının müstəqil strukturu olmaqla — Azərbaycan Respublikasının yanğından mühafizə sisteminə başçılıq edir, respublika ərazisində dövlət yanğın nəzarətini həyata keçirir.

Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi Azərbaycan Respublikasında yanğınsöndürmə texnikası məhsulunun dövlət sifarişçisidir və bu texnikaya dair tələbləri müəyyənləşdirir.

4. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin (bundan sonra — Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi) strukturuna aşağıdakılar daxildir:

a) Naxçıvan Muxtar Respublikası DİN Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli dövlət yanğın təhlükəsizliyi xidmətləri;

b) Azərbaycan Respublikasının inzibati ərazi vahidlərinin dövlət yanğın təhlükəsizliyinin idarə və xidmətləri; [6]

c) idarələrin, ayrı-ayrı müəssisələrin, təşkilatların yanğından mühafizəsi üzrə dövlət yanğın təhlükəsizliyi xidmətləri;

ç) dövlət yanğın-texniki, tədris, elmi-tədqiqat və istehsalat xidmətləri;

d) Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin tərkibinə daxil olan dövlət yanğın təhlükəsizliyinin xüsusiləşdirilmiş xidmətləri.

4.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə həvalə olunmuş məsələləri həll etmək üçün onun strukturunda, öz fəaliyyətini yanğın təhlükəsizliyi sahəsində həyata keçirən müəssisə və təşkilatlar yaradıla bilər.

4.2. dövlət yanğın təhlükəsizliyi xidmətlərinin, yanğın-texniki, tədris, elmi-tədqiqat və xüsusiləşdirilmiş istehsalat xidmətlərinin əsasnamələri Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi rəisi tərəfindən təsdiq olunur.

4.3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun müvafiq idarələri hüquqi şəxslərdir, öz adları yazılmış, respublikanın Dövlət gerbi təsvir olunmuş möhürləri, banklarda haqq-hesabları vardır.

5. Dövlət yanğın təhlükəsizliyi orqanı əməkdaşlarının xidmət keçmə qaydaları Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq Əsasnamələri ilə müəyyən edilir.

6. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə rəis rəhbərlik edir. O, Daxili İşlər Nazirliyinin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilir.

7. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisinin vəzifəsi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ali rəis heyəti tərkibinə daxildir və ona yanğın

təhlükəsizliyi məsələləri üzrə müstəqil yazışma hüququ verilir. O, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin fəaliyyətinə bilavasitə rəhbərlik edir, öz müavinləri arasında vəzifə bölgüsü aparır.

8. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi öz vəzifəsinə görə, eyni zamanda Azərbaycan Respublikasının yanğın nəzarəti üzrə Baş dövlət inspektorudur, onun müavinləri isə Azərbaycan Respublikasının yanğın nəzarəti üzrə Baş dövlət inspektorunun müavinləridir.

8.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin yanğın təhlükəsizliyini təmin edən müvafiq xidmətləri Azərbaycan Respublikasının dövlət yanğın nəzarəti orqanları sayılırlar.

8.2. Dövlət yanğın nəzarəti orqanları üçün xidməti vəzifələr Azərbaycan Respublikasının yanğın təhlükəsizliyi üzrə Baş dövlət inspektoru tərəfindən müəyyən edilir.

8.3. Dövlət yanğın təhlükəsizliyi orqanlarının yuxarı vəzifəli şəxslərinin göstəriş və sərəncamlarının dövlət yanğın təhlükəsizliyi orqanlarının aşağı vəzifəli şəxsləri tərəfindən yerinə yetirilməsi məcburidir.

9. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin nəzdində təşkilatçılıq işinin təkmilləşdirilməsi məqsədi ilə şura yaradılır. Şuranın Əsasnaməsi və tərkibi Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilir. Şuranın qərarları Baş idarə rəisinin əmri ilə həyata keçirilir. Şura ilə rəis arasında fikir ayrılığı olduqda rəis öz qərarını həyata keçirir və bu barədə daxili işlər nazirinə məlumat verir. Öz növbəsində Şura üzvləri fikirlərini daxili işlər nazirinə çatdıra bilər. Nazir tərəfindən çıxarılmış qərar qətidir.

10. Azərbaycan Respublikası Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin yerli xidmətləri, Naxçıvan Muxtar Respublikasının Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi, Baş idarənin bilavasitə tabeçiliyində olanlar istisna olmaqla, xidməti ərazilərində yerləşən bütün yanğından mühafizə sistemi növlərinin iş fəaliyyətinə rəhbərlik edirlər.

11. Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına saxlanılan dövlət yanğın təhlükəsizliyi xidmətlərinin strukturu, əməkdaşlarının sayı və fəaliyyət qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

12. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əsas vəzifələri bunlardır:

12.1. yanğın təhlükəsizliyi sahəsində dövlət tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsinin təşkili;

12.2. yanğınlarla mübarizənin səmərəliyini yüksəltmək;

12.3. respublika məqsədli proqramların yerinə yetirilməsinin həyata keçirilməsi;

12.4. dövlət yanğın təhlükəsizliyi standartlarının, normalarının, qaydalarının və yanğın təhlükəsizliyinə dair normativ sənədlərin hazırlanması, təsdiqi və icrasının təmin edilməsi;

12.5. dövlət yanğından mühafizənin, yanğın-texniki, elmi-tədqiqat və tədris müəssisələrinin saxlanması xərclərinin icrasını həyata keçirmək;

12.6. Azərbaycan Respublikasında dövlət yanğın nəzarətini aparmaq;

12.7. şəhərlərin, rayonların və digər yaşayış məntəqələrinin və müəssisələrin yanğından mühafizəsini və yanğın təhlükəsizliyi sahəsində digər işləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuşqaydada təşkil etmək və yerinə yetirmək;

12.8. yanğınların qarşısının alınması işini təkmilləşdirmək;

12.9. respublikada yanğına qarşı mülki müdafiə xidmətini təşkil etmək və ona rəhbərliyi həyata keçirmək;

12.10. yanğın profilaktika tədbirlərinin və müəyyən olunmuş yanğın təhlükəsizliyi tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

12.11. yanğından mühafizənin, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan yanğından mühafizənin məcburi qaydada yaradıldığı müəssisələrin siyahısını hazırlamaq və təsdiq edilməsi üçün Nazirlər Kabinetinə təqdim etmək;

12.12. yanğınların və onların nəticələrinin vahid statistik uçotunu aparmaq;

12.13. yanğından mühafizə üçün kadrların hazırlanması, yenidən hazırlıq keçməsini və ixtisasını artırmasını təmin etmək;

12.14. yanğından mühafizə fondlarının yaradılması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təkliflər vermək;

12.15. müəyyənləşdirilmiş normalara uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yanğından mühafizə növlərinin yaradılması barədə məsələ qaldırmaq; [7]

12.16. yanğınların söndürülməsi və onlarla əlaqədar olan təxirəsalınmaz xilasetmə işlərini həyata keçirmək;

12.17. yanğından mühafizə növlərinin yanğın və xüsusi texnika, geyim və ləvazimatlarla təmin etmək.

13. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ona həvalə olunmuş məsələlərə uyğun olaraq:

13.1. yanğın təhlükəsizliyi məsələləri üzrə nazirliklər, baş idarələr, müəssisələr və təşkilatlar ilə qarşılıqlı əlaqə yaradır;

13.2. yanğın təhlükəsizliyi sahəsində, yanğın texniki avadanlıqların və vəsaitlərin istehsalında tələblərin yerinə yetirilməsi məcburi olan norma və qaydaların hazırlanmasını təşkil edir, onları müstəqil və ya maraqlıtəşkilatlarla birgə təsdiq edir;

13.3. regionların, ərazilərin, sahələrin və müəssisələrin kompleks inkişafı üçün dövlət proqramlarının (planlarının) hazırlanmasında iştirak edir;

13.4. nazirliklər, baş idarələr, müəssisələr, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq digər hüquqi şəxslər, xarici hüquqi şəxslərin mülkiyyəti olan obyektlər və ya xüsusi investisiya qoyuluşlu müəssisələr, eləcə də vəzifəli şəxslər və vətəndaşlar, o cümlədən əcnəbilər, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən yanğın təhlükəsizliyi sahəsində qanunvericilik aktlarının, standartların, norma vəqaydaların tələblərinə riayət olunmasına dövlət nəzarətini həyata keçirir;

13.5. yanğın təhlükəsizliyi sahəsində vahid elmi-texniki siyasətin aparılmasını təşkil edir;

13.6. (Çıxarılıb) [8]

13.7. məhsulun, xidmətlərin, binaların və qurğuların müəyyənləşdirilmiş yanğın təhlükəsizliyi tələblərinə uyğunluq sertifikatları verir, verilmiş sertifikatların fəaliyyətini dayandırır, ləğv edir və ya onları geri götürür;

13.8. istehsal olunan məhsulların və malların, istismar olunan, bina, qurğu və digər obyektlərin uyğunluq sertifikatları olmayan hüquqi və fiziki şəxslərin haqq-hesablarının bağlanması barədə respublika bank, vergi müfəttişliyi və digər dövlət orqanları qarşısında məsələ qaldırır; [9]

13.9. müəssisələrin, binaların, qurğuların və digər obyektlərin tikintisinə, əsaslı təmirinə, yenidən qurulmasına, genişləndirilməsinə və texniki cəhətdən dəyişdirilməsinə dair şəhərsalma və layihə-smeta sənədlərini, yanğın təhlükəsizliyi tələblərinə əməl olunması baxımından nəzərdən keçirir və razılaşdırır;

13.10. tikinti meydançalarını (trasları) seçən, eləcə də tikintisi (yenidən qurulması) başa çatmış obyektlərin istismara qəbulu üzrə komissiyaların tərkibində həlledici səs hüququ ilə iştirak edir;

13.11. qüvvədə olan qanunvericiliyə uyğun olaraq yanğın hadisələri və yanğın təhlükəsizliyi qaydalarının pozulması üzrə tədqiqat aparır, yanğın təhlükəsizliyi sahəsində inzibati xətalar haqqında işlər üzrə icraatıhəyata keçirir; [10]

13.12. Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərinin, şəhər və rayon icra hakimiyyəti orqanları, nazirlik, baş idarə və müəssisələrlə yanğınların söndürülməsində birgə iştirak etmək üçün qüvvə vəvəsaitlərin cəlb edilməsi və onlarla əlaqədar təxirəsalınmaz xilasetmə işlərinin aparılması qaydasını yaradır, bu qüvvə və vəsaitlərin hazırlığına nəzarət edir; [11]

13.13. yanğınların söndürülməsinin təşkilinə və xilasetmə işlərinin aparılmasına ümumi rəhbərliyi həyata keçirir. Bölmələrin yanğınlarla mübarizədə peşəkar hazırlığını və şəxsi heyətin döyüş qabiliyyətinin yüksək səviyyəsini təmin edir;

13.14. yanğınların söndürülməsi zamanı, yanğınların söndürülməsinə cəlb edilmiş idarə, könüllü və digər yanğın birləşmələrinin operativ idarə olunmasını həyata keçirir;

13.15. yaşayış məntəqələri və müəssisələrin dövlət yanğın təhlükəsizliyi orqanlarının qüvvə və vəsaitlərlə təmin edilməsi normativini hazırlayır və təsdiq edir;

13.16. yanğınların söndürülməsinə, təbii fəlakətlərin nəticələrinin və iri qəzaların aradan qaldırılması üçün idarə tabeçiliyindən asılı olmayaraq yanğından mühafizə bölmələrinin və könüllü dəstələrinin (komandalarının) cəlb edilməsi, eləcə də onların qarşılıqlı əlaqə qaydalarını müəyyən edir;

13.17. yanğın texnikası və yanğınsöndürücü vasitələrin, maddələrin, materialların, məmulatların, avadanlıqların konstruksiyaların yanğın təhlükəsizliyi sınağının aparılmasını təşkil edir;

13.18. idarə və könüllü yanğından mühafizəsinin gücləndirilməsi və hərtərəfli inkişafına nəzarət və köməklik göstərir, onların şəxsi heyətinin hazırlığını təşkil edir;

13.19. fəhlələrə, qulluqçulara və təhsil müəssisələrində yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsinin təşkilində idarələrə, müəssisələrə, təşkilatlara köməklik göstərir;

13.20. yanğınlarla mübarizə məsələlərinə dair təbliğat aparır, yanğın-texniki ədəbiyyat, plakatlar, yaddaş kitabçalarının nəşrini, yanğından mühafizə mövzusunda kinofilmlər buraxılmasını təşkil edir;

13.21. respublikada yanğına qarşı mövcud operativ şəraiti nəzərə alaraq, dövlət yanğın təhlükəsizliyi orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə müəyyən tədbirlər işləyib həyata keçirir;

13.22. yanğından mühafizə sistemində analitik göstəriciləri təhlil edib tədbirlər hazırlayır, yanğınlara qarşı mübarizənin yaxşılaşdırılması, qabaqlayıcı tədbirlərin görülməsi üçün proqnozlaşdırma işləri apararaq təkliflər işləyib hazırlayır;

13.23. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin tabeçiliyində olan xidmətlərdə, xidmət fəaliyyətinin kompleks-müfəttiş və nəzarət qaydasında yoxlamasını təşkil edir, icra intizamına və planların icrasına, yoxlamalar zamanı aşkar olunmuş nöqsanların aradan qaldırılmasına nəzarət edir;

13.24. yanğın təhlükəsizliyi məsələləri ilə bağlı respublika üzrə yığıncaq, müşavirə, elmi-praktiki konfranslar keçirir. Bu istiqamətdə analitik informasiya sənədlərinin toplanmasını və ümumiləşdirilməsini təşkil edir;

13.25. yanğından mühafizə sisteminin vəziyyəti, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyətinin yaxşılaşdırılması barədə lazımi normativ-hüquqi sənədlər hazırlayır və icrasını təmin edir;

13.26. mülkiyyət formasından asılı olmayaraq binalarda, tikintilərdə, yaşayış evlərində, nəqliyyat vasitələrində və digər obyektlərdə ilkin yanğınsöndürmə vasitələrinin və inventarların siyahısını hazırlayır və təsdiq edir;

13.27. bina və qurğuların istismarı, tikinti işlərinin aparılması dövrü onlara uyğun yanğın təhlükəsizliyi norma və qaydalarını işləyib hazırlayır və təsdiq edir;

13.28. layihə və layihə-axtarış işlərini yerinə yetirən müəssisələrdə, onların hazırladığı layihə və layihə-smeta sənədlərinin yanğın təhlükəsizliyi tələblərinə uyğunluğu baxımından seçmə yolu ilə yoxlamalar keçirir;

13.29. respublika şəhər və rayonlarının, yaşayış məntəqələrinin və müəssisələrin yanğından mühafizə və xilasetmə vasitələrinin hazırlıq vəziyyətinə nəzarət edir;

13.30. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin xidmətləri üçün bina və qurğuların tikintisində müəssisə, təşkilatların payçılıq iştirakı barədə təklif verir;

13.31. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin xidmətlərində elmi-tədqiqat, texniki-sınaq və ixtiraçılıq fəaliyyətini istiqamətləndirir;

13.32. qarnizon və qlobal xidmətini, xidmət keçərkən və yanğın söndürərkən şəxsi heyətin hərəkətlərini nizama salan operativ sənədlərin tələblərinin yerinə yetirilməsini, qəzaların, bədbəxt hadisələrin nəticələrinin aradan qaldırılmasını təşkil edir;

13.33. yanğınsöndürmə işlərinin idarəetmə sistemini təkmilləşdirməklə, yanğınların söndürülməsində və xilasetmə işləri aparılmasında səmərəli üsul və vasitələr tətbiq etməklə bölmələrə metodiki və təşkilati köməklik göstərir;

13.34. yanğınsöndürmə bölmələrinin döyüş, xidməti və fiziki hazırlıq proqramlarının yerinə yetirilməsini təşkil edir;

13.35. bölmələrdə təlim-tərbiyə işini təşkil edir, nizam-intizamı möhkəmləndirmək, qanunçuluğa riayət etmək, şəxsi heyətin sosial-məişət şəraitini yaxşılaşdırmaq tədbirlərini həyata keçirir;

13.36. bölmələrdə texniki təhlükəsizliyin tələblərinə əməl olunmasına nəzarət edir, xəsarət almaq vəziyyətini təhlil edir, əməyin mühafizəsi və texniki təhlükəsizliyi yaxşılaşdırmaq məqsədi ilə profilaktiki tədbirlər görür;

13.37. idmanın yanğına tətbiqi üzrə Federasiyası ilə birlikdə idmanın yanğına tətbiqi növü üzrə yarışlar keçirir. Xilasetmə işlərinə tətbiq olunan yeni idman növləri işləyib hazırlayır;

13.38. yanğına qarşı mülki müdafiə xidməti sistemində səfərbərlik tədbirləri hazırlayıb həyata keçirir;

13.39. yanğın texnikaları ilə bağlı yol-nəqliyyat hadisələrinin qeydiyyatını və tədqiqatını aparır, yanğın avtomobillərində yol-nəqliyyat hadisələrinə yol verilməməsi, sürücülərin peşə hazırlığının artırılması üçün tədbirlər hazırlayıb həyata keçirir;

13.40. avtomatlaşdırma, rabitə və operativ idarəetmə sisteminin tətbiqini, genişləndirilməsini, Dövlət Yanğın Təhlükəsizliyi xidmətində operativ idarəetməni təşkil edir;

13.41. respublikanın sənaye müəssisələrində ayrı-ayrı yanğın texnikası növlərinin, avadanlıq, döyüş geyimi və ləvazimatlarının istehsalı haqqında təkliflər hazırlayır;

13.42. yanğından mühafizə bölmələrinin limit və ştat sayının uçotunu aparır. Mövcud saydan səmərəli istifadə və strukturu təkmilləşdirmə məsələlərini təhlil edir və müvafiq təkliflər hazırlayır;

13.43. kadrlara tələbatı öyrənir, onların hazırlığını perspektiv üçün planlaşdırır, xüsusi tədris müəssisələrində təhsil almaq üçün namizədlərin seçilməsini həyata keçirir;

13.44. bölmələrdə ştat-maliyyə intizamına riayət olunmasına və ştat vahidliyinin düzgün tədqiqinə nəzarət edir;

13.45. bölmələrdə əmək qanunvericiliyinə riayət olunmasına nəzarət edir;

13.46. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin kadrlarını öyrənir, irəliyə çəkmək üçün ehtiyat siyahı hazırlayır, ehtiyata keçirilmiş əməkdaşlarla lazımi iş aparır, Baş idarə rəisinin nomenklaturasına daxil olan əməkdaşların vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı məsələləri həll edir;

13.47. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin bölmələrində kadrların seçilməsi, yerləşdirilməsi, təlim və tərbiyəsi işlərinin vəziyyətinə nəzarət edir, onların peşəkar özəyini yaratmaq və sıralarını keyfiyyətcəyaxşılaşdırmaq tədbirlərini işləyib hazırlayır;

13.48. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi müxtəlif mülkiyyət mənsubiyyətli müəssisələrdə yanğından mühafizə bölmələrinin təşkil edilməsinə dair müqavilə bağlayır və müqavilə şərtlərinin həyata keçirilməsini təmin edir;

13.49. yanğın söndürərkən, təbii fəlakətlərin nəticələrini aradan qaldırarkən cəsurluq və fədakarlıq göstərdiklərinə görə Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əməkdaşlarını və vətəndaşları Dövlət mükafatlarıvə başqa növ mükafatlarla təltif üçün vəsatət hazırlayır;

13.50. Baş Dövlət Yanğın Təhlükəsizliyi sistemində maliyyə-plan işini təşkil edir. Baş İdarənin bölmələrində bilavasitə maliyyə planlaşdırılması, maliyyələşdirilmə, mühasibat, uçot və hesabat, maliyyə nəzarəti vəmaliyyə-təsərrüfat fəaliyyəti üzrə işlərin aparılmasını təmin edir;

13.51. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin saxlanması üçün smeta xərcləri layihələrini hazırlayır;

13.52. köməkçi xidmətlərin istehsal fəaliyyətinin inkişafına, habelə onların nəzdində yanğına qarşı avtomatika vasitələrinin, su təchizatı, ilkin yanğın söndürmə alətləri, əyani təşviqat vasitələri ilə təminat sistemlərinin təmiri və onlara xidmət üzrə müəssisələr yaradılmasına köməklik edir. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əməkdaşlarına, əhaliyə bu sahədə digər məişət və istehsalat xarakterli xidmətlər göstərir.

14. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi aşağıdakı hüquqlara malikdir:

14.1. yanğın təhlükəsizliyinin təmin edilməsi üçün təxirəsalınmaz tədbirlərinin aparılması barədə dövlət orqanları və müəssisələri qarşısında məsələ qaldırmaq;

14.2. təsdiq olunmuş siyahıya əsasən, xaricdən gətirilən məhsullara, avadanlıqlara, konstruksiyalara və s., respublika Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən yanğın sertifikatı verilmədən, Azərbaycan Respublikası ərazisində istifadəsini qadağan etmək;

14.3. (Çıxarılıb) [12]

14.4. yanğın təhlükəsizliyi qaydalarının tələblərinin pozulmasının qarşısını almaq məqsədi ilə müəssisələrin ərazilərində, binalarında, obyektlərində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuşqaydada müayinələr aparmaq;

14.5. idarə və könüllü yanğından mühafizəsi olan nazirliklərin, baş idarələrin və ayrı-ayrı müəssisələrin obyektlərində dövlət yanğın nəzarətini həyata keçirmək;

14.6. obyektin yanğın təhlükəsizliyi vəziyyətini səciyyələndirən məlumat və sənədləri müəssisələrdən, idarələrdən, təşkilatlardan tələb etmək;

14.7. layihə və tikinti təşkilatları tərəfindən müəssisə, bina və qurğuların layihələndirilməsi, tikintisi, əsaslı təmiri, yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən yeniləndirilməsi zamanı standartların, norma və qaydaların yanğına qarşı tələblərinə riayət olunmasına nəzarəti həyata keçirmək;

14.8. müəssisə rəhbərlərinə, vəzifəli şəxslərə və vətəndaşlara standartların, norma və qaydaların, yanğın təhlükəsizliyi tələblərinin pozulmasının aradan qaldırılması, eləcə də məhsulların (işlərin, xidmətlərin) yanğın təhlükəsizliyinin təmin edilməsi üçün icrası məcburi olan göstəriş məktubları təqdim etmək. Həmin göstəriş məktublarının yerinə yetirilməməsi və ya vaxtında yerinə yetirilməsindən boyun qaçırılması hallarında qüvvədə olan qanunvericiliyə uyğun müvafiq tədbirlər görmək;

14.9. ayrı-ayrı iş növlərinin görülməsi və xidmətlərin göstərilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, yanğın əmələ gəlmə təhlükəsi yarandıqda, eləcə də müəssisələrin, bina və qurğuların tikintisi, əsaslı təmiri, yenidən qurulması, genişləndirilməsi, texniki cəhətdən dəyişdirilməsi zamanı layihə və ya layihələndirmə normaları ilə nəzərdə tutulmuş yanğına qarşı tələblər yerinə yetirilmədikdə, çıxarılmış qərarlar əsasında müəssisələrin (ayrıca istehsalatların), istehsalat sahələrinin, aqreqatların işini, binaların, qurğuların istismarını, ayrı-ayrı işlərin görülməsini tamamilə və ya qismən dayandırılması barədə qərar qəbul etmək;

14.10. yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsi üzrə qüvvədə olan qanunvericiliyə uyğun olaraq vəzifəli şəxsləri və vətəndaşları inzibati qaydada məsuliyyətə cəlb etmək;

14.11. istehsalat materiallarının, məmulatların, avadanlıqların, konstruksiyaların yanğın təhlükəsizliyi üzrə nəzarəti sınaqlarının keçirilməsini, ətraf mühitin yanğın təhlükəsizliyinin

müayinəsinin aparılmasını, yanğına qarşı müdafiə sistemi və vasitələrinin yoxlanmasını nazirlik, baş idarələr və müəssisələrdən tələb etmək;

14.12. müəssisələrə və vətəndaşlara yanğın təhlükəsizliyi sahəsində xidmət göstərmək;

14.13. yanğın təhlükəli işlərə texniki rəhbərlik etməyə, eləcə də yüksək yanğın-partlayış təhlükəli, yanğından mühafizə, yanğınların söndürülməsi sistemi ilə bağlı işə götürülmə dövrü təyin olunmuş xüsusi tələblərin riayət olunmasına nəzarət etmək;

14.14. yanğınların söndürülməsi və ya onlarla əlaqədar digər təxirəsalınmaz xilasetmə işləri aparılan zaman, yanğın təhlükəli faktorlar daxil olmuş və ya daxil ola bilmək təhlükəsi yarandıqda, bütün istehsalat və digər otaqlara (qurğulara) maneəsiz daxil olmaq, lazımi hallarda qapıları, pəncərə və əhatəedici konstruksiyaları sökmək;

14.15. yanğınların söndürülməsi zamanı obyekt və müəssisələrin rabitə, su və nəqliyyat vasitələrindən maneəsiz və əvəzsiz istifadə etmək;

14.16. yanğınların söndürülməsi ilə əlaqədar küçə və yollarda nəqliyyat və piyadaların hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək, vətəndaşlara sahənin və ya obyektin ayrı-ayrı yerlərinə daxil olmamaqlarını, iş görülən əraziləri tərk etmələrini təkid etmək;

14.17. yanğınlar haqqında əhalini xəbərdar etmək və məlumatlandırmaq üçün kütləvi informasiya vasitələrinin imkanlarından əvəzsiz olaraq istifadə etmək;

14.18. yanğınların söndürülməsi və onlarla əlaqədar təxirəsalınmaz xilasetmə işləri aparılan zaman öz səlahiyyəti çərçivəsində müəssisələr, vəzifəli şəxslər və vətəndaşlar üçün yerinə yetirilməsi məcburi olan qərarlar qəbul etmək.

15. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi aşağıdakı hüquqlara malikdir:

15.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin mərkəzi aparatının və onun bölmələrinin rəhbərlərinin və əməkdaşlarının vəzifələrini müəyyənləşdirir və təsdiq edir;

15.2. Baş Dövlət Yanğın Təhlükəsizliyi xidmətlərinin fəaliyyəti məsələləri ilə əlaqədar, həmçinin tabelikdə olan aparat və bölmələrə əmr və göstərişlər vermək, daxili işlər orqanları aparatlarından regionların yanğına qarşı vəziyyəti və obyektlərin təbii fəlakətlərə qarşı davamlığını xarakterizə edən məlumat tələb etmək;

15.3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin aparat və bölmələrinin ştat vahidlərində dəyişikliklər barədə təkliflər vermək, səlahiyyətləri çərçivəsində struktur və ştatları təsdiq etmək;

15.4. Daxili İşlər Nazirliyinin nomenklaturasına daxil olan vəzifəyə əməkdaşların təyin və azad edilməsi barədə təqdimat vermək;

15.5. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin və onun xidmətlərinin əməkdaşlarını mükafatlandırmaq və cəzalandırmaq;

15.6. dövlət yanğın təhlükəsizliyi orqanlarının, yanğın-texniki tədris, elmi-tədqiqat və istehsalat bölmələrinə təşkilati-metodiki rəhbərliyi həyata keçirmək;

15.7. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin sıravi və rəis heyətinin müəyyən olunmuş qaydada attestasiyanı keçirmək;

15.8. beynəlxalq təşkilatlarda, digər dövlət idarələrində Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsini təmsil etmək, yanğın təhlükəsizliyi məsələləri üzrə müqavilələr bağlamaq, vəkalətnamə vermək;

15.9. qısa müddətli və növbəti məzuniyyətlərə çıxmağa icazə vermək, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin mərkəzi aparatının və ona tabe olan bölmələrin əməkdaşlarını ezamiyyətə göndərmək;

15.10. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əməkdaşlarına ayrılmış pul vəsaiti həddində müavinət vermək;

15.11. fövqəladə hallarda, yaranmış vəziyyəti nəzərə alaraq xilasetmə və digər təxirəsalınmaz işləri yerinə yetirmək üçün idarəetmə orqanlarının qüvvə və vəsaitini cəlb etmək, onlara göstərişlər vermək və icrasına nəzarət etmək;

15.12. yanğına qarşı, beynəlxalq xilasetmə təşkilatları və xidmətləri ilə qarşılıqlı yardım, məlumat mübadiləsi, mütəxəssislərin hazırlanması, onların fəaliyyətinin təkmilləşdirilməsi məsələlərində əməkdaşlıq etmək;

15.13. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə ayrılmış maliyyə vəsaitləri və maddi resurslar üzrə müəyyən olunmuş qaydada sərəncamlar vermək.

16. Nazirliklərin və baş idarələrin, yerli hakimiyyət və idarəetmə orqanlarının rəhbərləri, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi əməkdaşları üçün Azərbaycan Respublikasının qanunvericiliyinə və bu əsasnaməyəzidd olmayan digər imtiyazlar və sosial müdafiə təminatları da müəyyən edə bilərlər.

17. Dövlət yanğın təhlükəsizliyi orqanlarının şəxsi heyətinə mənzil sahələrinin ayrılması qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanları, eləcə də mühafizə olunan obyektlərin müdiriyyəti tərəfindən həyata keçirilir.

18. Dövlət yanğın təhlükəsizliyi orqanlarının vəzifəli şəxsləri onlara həvalə olunmuş vəzifələri yerinə yetirməmək və onlara verilmiş hüquqlardan düzgün istifadə etməməyə görə məsuliyyət daşıyırlar.

18.1. Dövlət yanğın təhlükəsizliyi orqanlarının vəzifəli şəxslərinin hərəkətindən qanunvericilikdə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

18.2. Şikayətin verilməsi, şikayət olunan qərarın yerinə yetirilməsini dayandırmır.

19. Dövlət yanğın təhlükəsizliyi orqanlarının fəaliyyətinin maliyyə təminatı həyata keçirilir:

19.1. Azərbaycan Respublikasının dövlət büdcəsindən;

19.2. (Çıxarılıb)

19.3. (Çıxarılıb)

19.4. (Çıxarılıb)

19.5. (Çıxarılıb)

19.6. (Çıxarılıb) [13]

19.7. Büdcədənkənar vəsaitlər yanğınların qarşısının alınması üzrə tədbirlərin keçirilməsinə, dövlət yanğın təhlükəsizliyi orqanlarının maddi-texniki təminatının yaxşılaşdırılmasına, bu orqanların şəxsi heyətinin sosial müdafiəsi və əməyin stimullaşdırılmasına istifadə olunur.

Bu Əsasnamənin 4-cü bəndinin "c" yarımbəndində göstərilən dövlət yanğın təhlükəsizliyi xidmətləri onların yanğından mühafizə ilə bağlı həyata keçirdikləri tədbirlərə görə müvafiq idarə, ayrı-ayrı müəssisələr və təşkilatlardan daxil olan ayırmalar hesabına Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən maliyyələşdirilir. [14]

19.8. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları və yerli idarəetmə orqanları, müvafiq büdcələr hesabına saxlanılan dövlət yanğın təhlükəsizliyi orqanlarınımaliyyələşdirir, eləcə də öz şəxsi vəsaitləri hesabına dövlət yanğın təhlükəsizliyi orqanlarının saxlanmasına ayrılan xərcləri artırmaq hüququna malikdirlər.

20. Müəssisələri mühafizə edən dövlət yanğın təhlükəsizliyi orqanlarının binalar, otaqlar, yanğın texnikası, avadanlıqlarla təmin edilməsi, eləcə də onların texniki istismarı və təmiri, bağlanmış müqavilə əsasında bu müəssisələrin müdiriyyəti tərəfindən həyata keçirilir.

21. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə dövlət yanğın nəzarəti funksiyasının həvalə olunması, mərkəzi və yerli icra hakimiyyəti orqanlarını, təşkilati-hüquqi formasından asılı olmayaraq idarələrin, müəssisələrin, təşkilatların ictimai birliklərin ayrı-ayrı obyektlərin fiziki şəxslərini, vətəndaşları yanğın təhlükəsizliyinin təmin edilməsi üzrə müəyyən edilmiş tələblərə mütəmadi nəzarət edilməsindən azad etmir vəonlar yanğın təhlükəsizliyinə görə cavabdehlik daşıyırlar.

22. Səfirliklərin, konsulluqların, ticarət palatalarının və diplomatik immunitetlik hüququna malik digər qurumların ərazisində yanğınların söndürülməsi, onların səlahiyyətli müvəkkil nümayəndələrinin razılığı vəya digər qəbul olunmuş qaydada həyata keçirilir.

~~23. Azərbaycan Respublikasının Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun bölmələrinin fəaliyyətinin qanuniliyinə, qüvvə və vəsaitdən səmərəli istifadə etməsinə, yanğından mühafizə orqanlarının və onun bölmələrinin onlara həvalə olunmuş vəzifələrin həcminə və xarakterinə uyğunluğuna idarə nəzarəti Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.~~

~~**ƏLAVƏ N 2**~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

## ~~Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin mərkəzi aparatının~~
## ~~S T R U K T U R U~~

~~1. Rəhbərlik~~
~~2. Xidmətin təşkili və yanğınsöndürmə idarəsi~~
~~3. Dövlət yanğın nəzarəti idarəsi~~
~~4. Maliyyə-iqtisadiyyat idarəsi~~
~~5. Quruluş-təşkilat şöbəsi~~
~~6. Analitik-informasiya şöbəsi~~
~~7. İstintaq şöbəsi~~
~~8. Şəxsi heyətlə iş üzrə bölmə~~
~~9. Katiblik~~

~~**ƏLAVƏ N 3**~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

## ~~Yanğın təhlükəsizliyi sahəsində xidmətlərin və işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi~~
## ~~Q A Y D A L A R I~~

~~(Çıxarılıb)~~ [15]

~~**ƏLAVƏ N 4**~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 9 aprel tarixli 72 nömrəli qərarına~~
~~ƏLAVƏ~~

## ~~Xüsusİ razılıq (lİsenzİya) alınması üçün ödənİlən dövlət rüsumunun məbləğİ~~

~~(Çıxarılıb)~~ [16]

ƏLAVƏ N 5
Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarına
ƏLAVƏ

## Yanğın təhlükəsizliyi sahəsində məcburi qaydada sertifikatlaşdırılan məhsulun və xidmətlərin
## SİYAHISI

| Məhsulun qrupu | Məhsulun növü |
|---|---|
| 1 | 2 |
| 1. Yanğın avtomobilləri | Yanğın avtosisterni, yanğın avtonasosu, yanğın nasos-şlanqlıavtomobil, yanğın-qəza xilasedici avtomobil, yanğın avtomobilləri (köpüklü söndürmə, tozlu söndürmə, qazla söndürmə, impulslu söndürmə, cəld reaksiya vermə, qaz-su qatışığı ilə söndürmə, kombinə üsulu ilə söndürmə), yanğın avtonəqliyyatı, yanğın avtoqaldırıcı, qazdan-tüstüdən müdafiəyanğın avtomobili, sudan müdafiə yanğın avtomobili, tüstüqovan yanğın avtomobili, yanğın avtonasos stansiyası, şlanq yanğın avtomobili, rabitə və işıqlandırma yanğın avtomobili, aerodrom xidməti yanğın avtomobili, ştab yanğın avtomobili, yanğın avtolaboratoriyası, texniki xidmət yanğın avtomobili, yanğın gəmisi, yanğın uçuş aparatları (təyyarələr, vertolyotlar), yanğın tüstü sorucuları (qoşqulu, daşınan), yanğın motopompası(qoşqulu, daşınan), yanğın qoşqusu, yanğın nasosu |
| 2. Yanğın avadanlığı | Yanğın hidrantı, yanğın dirəkləri, yanğın şlanq altlığı, yanğın şlanqı (təzyiqli, sorucu), şlanq ötürücüsü, su yığıcı, şlanq ayırıcı, yanğın kolonkası, sorucu yanğın süzgəci, yanğın lüləsi (əl lüləsi, lafetli, su üçün, köpük üçün, toz üçün), yanğın hidroelevatoru, yanğın köpük qarışdırıcısı, şlanq kaseti, şlanq barabanı, şlanq dirsəyi, birləşdirici başlıqların açarı, şlanq dolayan qurğular, yanğın şlanqlarına xidmət xətləri, yanğın birləşdirici başlıqlar, şlanq tutucuları, şlanq körpücükləri, şlanq sıxıcıları, yanğın qarmaqları, yanğın çəngəli, yanğın baltası, yanğın lingi, su vəköpükəmələgətirici üçün boçkalar, qum qabı, yanğın lövhələri, asbest parçası, yanğın dirəklərinin şkafları, yanğın şitləri, qum üçün yeşiklər |
| 3. Yanğın xilasedici qurğular | Siyirtmə yanğın nərdivanı, hücum nərdivanı, ağac nərdivanı, söykədilən yanğın nərdivanı, xilasedici şlanq, tullanmaq üçün nəzərdə tutulan xilasedici matras və xilasedici kətan, xilasedici kəndir, özü-özünü xilasetmə vəsaitləri |
| 4. Yanğın söndürənlərin şəxsi müdafiəvasitələri | Yanğın dəbilqəsi, yanğın kəməri, yanğın karabini, istiliyi dəf edən yanğın kostyumu, yanğın söndürənin döyüş geyimi, yanğın söndürənlər üçün təcridedici əleyhqazlar və respiratorlar |
| 5. Yanğınsöndürmə qurğuları(avtomatik, əl ilə idarə olunan, həcmli və səthi yanğın söndürmə, modullu) | Su ilə yanğınsöndürmə qurğusu, sprinklerli yanğınsöndürməqurğusu, drençerli yanğınsöndürmə qurğusu, karbonlu yanğınsöndürmə qurğusu, azotlu yanğınsöndürmə qurğusu, aerozollu yanğınsöndürmə qurğusu, buxarla yanğınsöndürməqurğusu, xladonlu yanğınsöndürmə qurğusu, köpüklüyanğınsöndürmə qurğusu, |

| Məhsulun qrupu | Məhsulun növü |
|---|---|
| 1 | 2 |
| | qazla yanğınsöndürmə qurğusu |
| 6. Odsöndürənlər (daşınan, hərəkətli) | Su odsöndürücü, hava-köpük qatışıqlı odsöndürücü, kimyəvi-köpüklü odsöndürücü, tozlu odsöndürücü, xladonlu odsöndürücü, karbonlu odsöndürücü |
| 7. Yanğın xəbərverici qurğular | Əl ilə idarə olunan xəbərverici, avtomat yanğın xəbərvericilər (istiliyə qarşı, alova qarşı, tüstüyə qarşı, radio izotoplu optik), yanğın qəbuledici nəzarətli cihaz, yanğın xəbərvericilər |
| 8. Odsöndürücü vasitələr | Odsöndürücü tozlar, odsöndürücü qazlar və qaz tərkibli odsöndürücülər, köpük əmələgətiricilər |
| 9. Maddə, material və məhsullar | Döşəmələr üçün xalçalar və xalça məmulatları, döşəməayaqaltıları, linoleum, penoplen, plastik məhsul növləri, lak vəboyalar, yapışqan şpaklyovka, asma tavanların materialları, istilik təcridedici materiallar, bəzəmə və hörgü tikinti materialları, yanğına qarşı divarların oyuqlarında yerləşdirilmiş tikinti konstruksiyaları və məmulatları (qapılar, pəncərələr, darvazalar, lyuklar, qapaqlar), elektrik qurğuları və cihazları, kabel məhsulu, qaz cihazları və qurğuları, sauna üçün qurğular, sauna üçün tikinti komplekti |
| 10. (Çıxarılıb) | |
| 11. (Çıxarılıb) | |
| 12. (Çıxarılıb) | |
| 13. (Çıxarılıb) [17] | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2001-ci il tarixli 38 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 2, maddə 116**)
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**)
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 aprel 2003-cü il tarixli 47 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 4, maddə 219**)
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2003-cü il tarixli 90 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 7, maddə 390**)
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 9, maddə 524**)
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 sentyabr 2004-cü il tarixli 119 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 737**)
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 sentyabr 2005-ci il tarixli 164 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 9, maddə 855**)
8. 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 09, maddə 822)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə qərarın adından "**Yanğın təhlükəsizliyi sahəsindəxidmətlərin və işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydalarının**" sözləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə"nin, "Yanğın təhlükəsizliyi sahəsində xidmətlərin və işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları"nın təsdiq edilməsi və Azərbaycan Respublikasında yanğın təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında~~

[2] 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 09, maddə 822)** ilə adından **"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi və"** sözləri çıxarılmışdır.

[3] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə 5-ci bənd çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~5. "Yanğın təhlükəsizliyi sahəsində xidmətlərin və işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).~~

[4] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə 6-cı bənd çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 9 aprel tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) alınması üçün ödənilən dövlət rüsumunun məbləği"nə 55 – 65-ci bəndlər əlavə edilərək təsdiq edilsin (4 nömrəli əlavə).~~

[5] 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 09, maddə 822)** ilə 1-4-cü və 8-ci bəndləri çıxarılmışdır.

[6] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2001-ci il tarixli 38 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 2, maddə 116**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 4-cü bəndinin "b" yarımbəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~b) Azərbaycan Respublikası şəhərlərinin, rayonlarının (həmçinin şəhər tabeli rayonların), digər inzibati-ərazi bölgülərinin dövlət yanğın təhlükəsizliyi idarə və xidmətləri;~~

[7] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 aprel 2003-cü il tarixli 47 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 4, maddə 219**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin BaşDövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 12.15-ci bəndində "**yerli büdcələrin**" sözləri "**dövlət büdcəsinin**" sözləri ilə əvəz edilmişdir.

[8] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 13.6-cı bəndi çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~13.6. qanunvericilikdə nəzərdə tutulmuş hallarda yanğın təhlükəsizliyi sahəsində ayrı-ayrı fəaliyyət növlərinə (işlərə, xidmətlərə) lisenziya verir, verilmiş lisenziyaların fəaliyyətini dayandırır, ləğv edir və ya onları geri götürür;~~

[9] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 13.8-ci bəndindən "**yanğın təhlükəsizliyi sahəsində fəaliyyət növlərinə lisenziyaları, eləcə də**" sözləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~13.8. yanğın təhlükəsizliyi sahəsində fəaliyyət növlərinə lisenziyaları, eləcə də istehsal olunan məhsulların və malların, istismar olunan, bina, qurğu və digər obyektlərin uyğunluq sertifikatları olmayan hüquqi və fiziki şəxslərin haqq-hesablarının bağlanması barədə respublika bank, vergi müfəttişliyi və digər dövlət orqanları qarşısında məsələ qaldırır;~~

[10] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 sentyabr 2005-ci il tarixli 164 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 9, maddə 855**) ilə 1 nömrəli əlavə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 13.11-ci bəndində "**hüquqpozmalar**" sözü "**xətalar**" sözü ilə əvəz edilmişdir.

[11] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2001-ci il tarixli 38 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 2, maddə 116**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 13.12-ci yarımbəndində "**bölgülərinin**" sözü "**vahidlərinin**" sözü ilə əvəz edilmişdir.

[12] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 9, maddə 524**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 14.3-cü bəndində "**yanğından mühafizə sistemi üçün**" sözləri "**dövlət büdcəsinə**" sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 sentyabr 2004-cü il tarixli 119 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 737**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 14.3-cü bəndi çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~14.3. yerli büdcələrin və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən işlər istisna olmaqla, müvafiq təşkilatlar tərəfindən maliyyələşdirilən obyektlərin tikintisi, əsaslı təmiri, yenidən qurulması müəssisələrin, binaların, qurğuların və başqa obyektlərin genişləndirilməsi, yeni texnika ilə təchiz edilməsi işlərinin ümumi smeta dəyərlərinin 0,5 faizi məbləğində dövlət büdcəsinə məcburi ayırmaların ayrılmasını təmin etmək;~~

[13] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2001-ci il tarixli 38 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 2, maddə 116**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 19.2-ci yarımbəndində "**bölgülərinin**" sözü "**vahidlərinin**" sözü ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 9, maddə 524**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 19.2 – 19.6-cı bəndləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~19.2. Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərinin büdcələrindən;~~

~~19.3. bağlanmış müqavilələrə müvafiq olaraq nazirliklərin, baş idarələrin, müəssisələrin daxil olmuş vəsaitlərindən;~~

~~19.4. qüvvədə olan qanunvericiliyə müvafiq olaraq təyin edilmiş yerli vergi və rüsumlardan;~~

~~19.5. sığorta təşkilatlarının ayırmalarından;~~

~~19.6. dövlət yanğın təhlükəsizliyi orqanları tərəfindən göstərilən təsərrüfat fəaliyyəti və pullu xidmətlərdən alınan vəsaitlərdən.~~

[14] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 9, maddə 524**) ilə "**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi haqqında Əsasnamə**"nin 19.7-ci bəndinə ikinci abzas əlavə edilmişdir.

[15] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə 3 nömrəli əlavə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~**ƏLAVƏ N 3**~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

~~**Yanğın təhlükəsizliyi sahəsində xidmətlərin və işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi**~~

~~**Q A Y D A L A R I**~~

~~**I. ÜMUMİ MÜDDƏALAR**~~

~~1.1. Bu Qaydalar "Sahibkarlıq fəaliyyəti haqqında", "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 27 yanvar tarixli 543 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Əsasnamə"yə və "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında" 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanına əsasən hazırlanmışdır və yanğın təhlükəsizliyi sahəsində xidmətlərin və işlərin görülməsi fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi (bundan sonra lisenziya) qaydalarını müəyyən edir.~~

~~1.2. Bu Qaydalara əsasən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən verilən lisenziya mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərə, habeləhüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə (bundan sonra "ərizəçilər") aşağıdakı fəaliyyət növlərini həyata keçirməyə icazə verən rəsmi sənəddir:~~

~~1.2.1. müəssisələrin və yaşayış məntəqələrinin müqavilə əsasında yanğınlardan qorunması;~~

~~1.2.2. yanğınsöndürmə texnikası məhsulunun istehsalı və alınması, sınaqların keçirilməsi;~~

~~1.2.3. layihə-axtarış işlərinin yerinə yetirilməsi;~~

~~1.2.4. elmi-texniki məsləhət verilməsi və ekspertiza keçirilməsi;~~

~~1.2.5. maddələrin, materialların, məmulatın, avadanlığın və konstruksiyaların yanğın təhlükəsizliyinin sınaqdan keçirilməsi;~~

~~1.2.6. əhaliyə yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsi;~~

~~1.2.7. yanğına qarşı təbliğat aparılması, xüsusi ədəbiyyatın və reklam məhsulunun nəşri;~~

~~1.2.8. yanğından qoruma və boru-soba işləri;~~

~~1.2.9. yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri;~~

~~1.2.10. yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası;~~

~~1.2.11. yanğından mühafizə binalarının, qurğularının, otaqlarının tikilməsi, yenidən qurulması və təmiri.~~

~~Bu bənddə göstərilən hər bir fəaliyyət növü üçün ayrıca lisenziya verilir.~~

~~Ərizəçilərin fəaliyyəti çox profilli (yönümlü) olduqda onlar bir neçə lisenziyaya malik ola bilərlər.~~

~~1.3. Ərizəçilər yalnız bu Qaydalara əsasən lisenziya aldıqdan sonra həmin lisenziyada göstərilən sahibkarlıq fəaliyyəti növü ilə müəyyən edilmiş qaydada və müddətdə məşğul ola bilərlər.~~

~~1.4. Xarici hüquqi və fiziki şəxslər öz ölkələrində bu Qaydalarda göstərilən fəaliyyət növü ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında~~

tanınmasını müəyyən edən dövlətlərarası saziş olmadığı halda, onlar həmin fəaliyyət növü ilə məşğul olmaq üçün bu Qaydalara uyğun olaraq lisenziya almalıdırlar.

1.5. Lisenziyanın sahibi verilən lisenziyadan (lisenziyanın surətindən) yalnız özü istifadə edə bilər, onu başqa şəxslərə verə bilməz və bu lisenziyanın qüvvəsi lisenziya sahibinin təsisçisi olduğu hüquqi şəxslərə, lisenziyanın sahibi iləbirgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə bağlanmış müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.

Fərdi əmək müqaviləsi (kontraktı) və ya tapşırıq müqaviləsi əsasında lisenziya sahibinin adından hərəkətlər edən şəxsə müvəqqəti olaraq lisenziyanın verilməsi lisenziyanın başqa şəxsə verilməsi sayılmır.

## II. LİSENZİYANIN VERİLMƏSİ QAYDASI

2.1. Lisenziya almaq üçün ərizəçi Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə aşağıdakıları təqdim etməlidir:

2.1.1. lisenziya almaq üçün ərizə.

Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

hüquqi şəxslər üçün — hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, hesablaşma hesabının nömrəsi və bankın adı, fəaliyyət növü*;

fiziki şəxslər üçün — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı), fəaliyyət növü*;

2.1.2. müəssisənin təsis sənədlərinin surəti;

2.1.3. müəssisənin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;

2.1.4. sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;

2.1.5. lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd;

2.1.6. ərizədə göstərilən obyektlərdən hər biri üçün ərizəçinin istifadə hüququnu (mülkiyyət hüququ, icarə, istifadə və s. əsasları) təsdiq edən sənədin surəti;

2.1.7. lisenziya verilməsi üçün tələb olunan zəruri şərait və şərtlər aşağıdakılardır:**

müəssisənin maddi-texniki bazasının vəziyyəti, binaların (otaqların) texniki təhlükəsizlik və iş şəraitinin tələblərinə cavab verməsi;

keyfiyyətə nəzarət sisteminin olması;

ərizəçinin və mütəxəssislərin ali və ya orta xüsusi təhsili;

cihazlar və qurğuların metroloji attestasiya olunması (1.2.2 və 1.2.5 bəndlərdə göstərilən fəaliyyət növləri üçün);

öyrətmə məsələlərinə uyğun olan təhsil-metodiki materiallar (1.2.6 bəndlərində göstərilən fəaliyyət növləri üçün);

yanğın avtomobilləri, yanğın-texniki ləvazimat və odsöndürücü mayelərin olması (1.2.1 bəndlərində göstərilən fəaliyyət növləri üçün);

hər bir avtomobilin döyüş hesabının ən azı 75 faiz ştat vahidi ilə komplektləşdirilməsi (1.2.1 bəndlərində göstərilən fəaliyyət növləri üçün).

2.2. Ərizəçidən bu Qaydalarda nəzərdə tutulmayan sənədlərin tələb olunması qadağandır.

2.3. Lisenziya almaq üçün təqdim olunan ərizə və bu Qaydalarda nəzərdə tutulan sənədlər Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq 15 gündən gec olmamaqla lisenziya verilməsi haqqında qərar qəbul edilir.

Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə yazılı məlumat verilir, onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Bu Qaydalarda göstərilən əsaslarla lisenziya verilməsindən imtina olunduğu halda bu barədə ərizəçiyə imtinanın əsasları göstərilməklə yazılı məlumat verilir.

Bu bənddə göstərilən müddətlərin son günü qeyri iş gününə düşərsə, ondan sonrakı iş günü müddətin qurtarma günü hesab olunur.

2.4. Lisenziya verilməsindən aşağıdakı hallarda imtina edilir:

2.4.1. bu Qaydalarda nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;

2.4.2. ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

2.4.3. fəaliyyət növünün həyata keçirilməsi üçün ərizəçinin bu Qaydalarda nəzərdə tutulan zəruri şəraiti olmadıqda;

2.4.4. ərizəçi və ya cəlb ediləcək mütəxəssislər bu Qaydalarda nəzərdə tutulan fəaliyyətlə məşğul olmaq üçün müvafiq ixtisasa malik olmadıqda;

2.4.5. ərizəçinin əvvəllər bu fəaliyyət növü üçün aldığı lisenziyanın lisenziya verən orqanın təşəbbüsü ilə ləğv edilməsindən iki il vaxt keçməmişdirsə;

2.4.6. ərizəçi, əvvəllər bu fəaliyyət növü üçün aldığı lisenziyanın lisenziya verən orqanın təşəbbüsü ilə dayandırıldığı dövrdə müraciət etdikdə;

2.4.7. qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

2.5. Ərizəçi lisenziya verilməsindən imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra lisenziya almaq üçün bu Qaydalara uyğun olaraq Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə müraciət etmək və ya imtina barədə qərarla razılaşmadıqda məhkəməyə müraciət etmək hüququna malikdir.

2.6. Müəssisə, təşkilat, idarə ləğv edildikdə, yaxud sahibkar kimi fəaliyyət göstərmək üçün fiziki şəxsə verilən şəhadətnamə qüvvədən düşdükdə, hüquqi və fiziki şəxslərə verilən lisenziya da öz hüquqi qüvvəsini itirir.

Hüquqi şəxs yenidən təşkil edildikdə, onun adı dəyişdirildikdə, fiziki şəxsin şəxsiyyətini təsdiq edən vəsiqə haqqında məlumatları dəyişdikdə, lisenziya itirildikdə ərizəçi 15 gün müddətində lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün ərizə təqdim etməlidir.

Lisenziyanın yenidən rəsmiləşdirilməsi onun verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

Lisenziyanın yenidən rəsmiləşdirildiyi müddətdə lisenziyanın sahibi öz fəaliyyətini əvvəlki lisenziya (ayrı-ayrı obyektlər üçün verilmiş lisenziyanın surətləri) əsasında, lisenziya itirildikdə isə BDYTİ-nin verdiyi müvəqqəti icazə (ayrı-ayrı obyektlər üçün verilmiş lisenziyanın surətləri) əsasında həyata keçirir. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəhbərləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş müvəqqəti icazə lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün bütün sənədlər təqdim edildikdə verilir.

## III. LİSENZİYA

3.1. Lisenziyada aşağıdakılar göstərilir:

3.1.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin adı;

3.1.2. hüquqi şəxslər üçün — lisenziya verilən müəssisə, təşkilat və idarənin adı və hüquqi ünvanı;

3.1.3. fiziki şəxslər üçün — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, yaşayış yeri);

3.1.4. həyata keçirilməsinə lisenziya verilən fəaliyyət növü;

3.1.5. lisenziyanın qüvvədə olma müddəti;

3.1.6. müvafiq fəaliyyət növünün həyata keçirilməsi qaydası;

3.1.7. lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi.

3.2. Lisenziya Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi rəisi (o olmadıqda rəisin müavini) tərəfindən imzalanır və idarənin möhürü ilə təsdiq olunur.

## IV. LİSENZİYANIN MÜDDƏTİ

4.1. Lisenziya iki il müddətinə verilir.

4.2. Lisenziyanın qüvvədə olma müddətinin uzadılması onun verilməsi üçün müəyyən olunmuş qaydada həyata keçirilir.

4.3. Müddəti bitmiş lisenziya və onun surətləri etibarsız sayılır.

## V. LİSENZİYANIN SURƏTİ

5.1. Lisenziyalaşdırılan fəaliyyət növü ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirildiyi halda, ərizəçiyə lisenziya ilə birlikdə ərizədə göstərilən hər bir obyekt üçün onun ünvanı göstərilməklə lisenziyanın surəti təqdim olunur.

5.2. Ərizəçi lisenziya aldıqdan sonra öz fəaliyyətini ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirmək və ya belə obyektlərin sayını artırmaq istədikdə təzə obyektlərə lisenziyanın surətlərini almaq üçün Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə aşağıdakı sənədləri təqdim etməlidir:

5.2.1. verilmiş lisenziyanın qeydiyyat nömrəsi, tarixi, fəaliyyətin növü, yeni obyektlərin sayı və ünvanı göstərilməklə ərizə;

5.2.2. obyektlər barədə bu Qaydaların 2.1.6 – 2.1.7 yarımbəndlərində tələb olunan sənədlər.

5.3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi lisenziyanın surətlərinin verilməsi məsələsinə dair müraciətə bu Qaydaların 2.3 və 2.4 bəndlərinə əsasən baxır və müvafiq qərar qəbul edir.

5.4. Lisenziyanın surəti — lisenziyanın sahibinə hər bir obyekt üçün lisenziya blankında, verilmiş lisenziyada əks edilən göstəricilər yazılmaqla, blankın yuxarı sağ küncünə "Surəti" sözü və ünvan qrafasına obyektin ünvanı da əlavəedilməklə doldurulmuş, orqanın rəisi və rəis olmadıqda müavini tərəfindən imzalanan və orqanın möhürü ilə təsdiq edilən və həmin obyektə bu fəaliyyət növü ilə məşğul olmağa icazə verən rəsmi sənəddir.

5.5. Lisenziyaların surəti Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən qeydə alınır.

5.6. Lisenziyanın surəti itirildikdə lisenziya sahibi lisenziyanın yeni surətini rəsmiləşdirmək üçün Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə müraciət edir.

5.7. Lisenziyanın surətinin verilməsi və yenidən rəsmiləşdirilməsi üçün haqq alınmır.

## VI. LİSENZİYANIN QÜVVƏDƏ OLMA QAYDALARI VƏ NƏZARƏT

6.1. Bu Qaydalara əsasən lisenziya sahibləri fəaliyyət növünü həyata keçirərkən aşağıdakı qaydalara riayət etməlidirlər:

6.1.1. yanğın təhlükəsizliyi standartlarının, norma və qaydaların, istehsalat, sanitariya və gigiyena, əməyin və ətraf mühitin mühafizəsi tələblərin gözlənilməsinə;

6.1.2. lisenziyanın verilməsi üzrə bütün şərtlərin və ştat strukturunun dəyişdirilməsi haqqında ərizəsi təxirəsalınmadan BDYTİ-nə məlumat verməlidir;

6.1.3. istehsal olunacaq məhsulun faktiki-texniki xarakteristikalarının parametrlərin, standartların və digər normativ sənədlərin tələblərinə uyğunluğu (uyğunluq sertifikatı, idarələrarası komissiyaların rəyi, müvafiq akkreditəolunmuş təşkilatlarda sınaq protokolları).

6.2. Lisenziyanın qüvvədə olma qaydalarına nəzarəti Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi həyata keçirir.

6.3. Nəzarət qaydasında Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin səlahiyyətlərinə aşağıdakılar daxildir:

6.3.1. lisenziyada göstərilən fəaliyyət növünün həyata keçirilməsini tənzimləyən normativ-hüquqi aktlara və lisenziya qaydalarına riayət edilməsini yoxlamaq;

6.3.2. yoxlama zamanı ortaya çıxan suallara aid lisenziya sahibindən məlumatlar, arayışlar istəmək və almaq;

6.3.3. yoxlamanın nəticələrinə dair pozuntuları və onların aradan qaldırılması müddətini göstərməklə akt tərtib etmək;

6.3.4. müəyyən edilmiş pozuntuların aradan qaldırılması barədə lisenziya sahibinə xəbərdarlıq vermək;

6.3.5. lisenziyanın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə məsələyə baxmaq.

6.4. Lisenziya sahibi aparılan yoxlama zamanı Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin nümayəndələrinə yoxlanılacaq obyektlərə daxil olmağa, yoxlamanın aparılması üçün zəruri olan normal şərait yaratmağa və tələb olunan sənədləri onlara təqdim etməyə borcludur.

6.5. Yoxlamanın nəticəsi barədə iki nüsxədən ibarət akt tərtib edilir. Akt Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin nümayəndələri və lisenziya sahibi (müəssisənin rəhbəri) tərəfindən imzalanır. Aktı imzalamaqdan imtina edildikdəbu barədə aktda qeyd edilir. Akta lisenziya sahibinin (müəssisənin rəhbərinin) izahatı əlavə edilir. Aktın bir nüsxəsi lisenziya sahibində qalır.

6.6. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi zəruri olduqda müvafiq təşkilatların nümayəndələrini bu Qaydalara uyğun nəzarət qaydasında aparılan yoxlamalara cəlb edə bilər.

## VII. LİSENZİYANIN FƏALİYYƏTİNİN DAYANDIRILMASI VƏ YA LƏĞV EDİLMƏSİ

7.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi lisenziyanın fəaliyyətini aşağıdakı hallarda dayandırır:

7.1.1. lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

7.1.2. lisenziya sahibi tərəfindən normativ aktlara əməl edilmədikdə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq dövlət orqanları tərəfindən ərizəçinin fəaliyyəti dayandırıldıqda;

7.1.3. lisenziya sahibinin müflisləşməsi faktı Azərbaycan Respublikasının qanunvericiliyi ilə təsdiq edildikdə;

7.1.4. fəaliyyət növünün həyata keçirilməsi üçün bu Qaydalarla tələb olunan zəruri şərait və şərtlər pozulduğu aşkar edildikdə;

7.1.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

7.2. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi lisenziyanın fəaliyyətinin dayandırılması haqqında qərar qəbul etdiyi andan 5 gün müddətində yazılı şəkildə lisenziyanın sahibinə və dövlət vergi xidməti orqanlarına məlumat verir.

Lisenziyanın fəaliyyətinin dayandırılmasına səbəb olan hallar dəyişildikdə lisenziyanın fəaliyyəti lisenziyanın sahibinin müraciətinə əsasən bərpa oluna bilər. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən bu barədə müvafiq qərar qəbul edildikdə lisenziya bərpa edilmiş hesab olunur, həmin qərar qəbul edilmiş andan 5 gün müddətində bu haqda lisenziyanın sahibinə və dövlət vergi xidməti orqanlarına məlumat verilir.

7.3. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi lisenziyanı aşağıdakı hallarda ləğv edir:

7.3.1. lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

7.3.2. lisenziya verilməsi üçün təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar aşkar edildikdə;

7.3.3. lisenziyanın qüvvədə olma qaydaları lisenziya sahibi tərəfindən pozulduqda;

7.3.4. məhkəmənin müvafiq qərarı olduqda;

7.3.5. hüquqi şəxs ləğv edildikdə və sahibkar kimi fəaliyyət göstərən fiziki şəxsə verilən şəhadətnamə qüvvəsini itirdikdə;

7.3.6. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

7.4. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi lisenziyanın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 5 gün müddətində yazılı şəkildə lisenziyanın sahibinə və dövlət vergi xidməti orqanlarına məlumat verir.

7.5. Lisenziyanın fəaliyyətinin dayandırılması, ləğv edilməsi və ya bərpası haqqında qəbul edilmiş qərar lisenziyanın bu Qaydalara əsasən ayrı-ayrı obyektlər üçün verilmiş surətlərinə də şamil olunur.

7.6. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi verdiyi, qeydə aldığı, dayandırdığı, bərpa etdiyi və ləğv etdiyi lisenziyaların reyestrini aparır.

## VIII. MƏSULİYYƏT

8.1. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəhbərləri və vəzifəli şəxsləri lisenziyalaşdırma haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması, yaxud onun lazımi şəkildə icra olunmamasına görə mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

8.2. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin qərarlarından və hərəkətlərindən müəyyən olunmuş qaydada məhkəmə orqanlarına şikayət oluna bilər.

8.3. Bu Qaydalarda göstərilən fəaliyyət növləri ilə lisenziyasız məşğul olanlar mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

* Ərizədə göstərilən fəaliyyət növü ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçiriləcəkdirsə, ərizədə həmin obyektlərin sayı və ünvanı da göstərilir.

** Bu şərtlərə ərizəçinin ərizədə göstərilən fəaliyyət növü ilə məşğul olacaq hər bir obyekti uyğun olmalıdır.

[16] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 173 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 11, maddə 675**) ilə 4 nömrəli əlavə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

ƏLAVƏ N 4
Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 6 iyul tarixli 151 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 9 aprel tarixli 72 nömrəli qərarına
ƏLAVƏ

**XÜSUSİ RAZILIQ (LİSENZİYA) ALINMASI ÜÇÜN ÖDƏNİLƏN DÖVLƏT RÜSUMUNUN MƏBLƏĞİ**

| №-si | Fəaliyyət növlərinin adı | məbləğ (min manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| "55. | Müəssisələrin və yaşayış məntəqələrinin müqavilə əsasında yanğınların qorunması | 6000 |
| 56. | Yanğınsöndürmə texnikası məhsulunun istehsalı vəalınması, sınaqlarının keçirilməsi | 6000 |
| 57. | Layihə-axtarış işlərinin yerinə yetirilməsi | 2000 |
| 58. | Elmi-texniki məsləhət verilməsi və ekspertiza keçirilməsi | 2000 |
| 59. | Maddələrin, materialların, məmulatların avadanlığın vəkonstruksiyaların yanğın təhlükəsizliyinin sınaqdan keçirilməsi | 4000 |
| 60. | Əhaliyə yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsi | 1000 |
| 61. | Yanğına qarşı təbliğat aparılması, xüsusi ədəbiyyatın vəreklam məhsulunun nəşri | 400 |
| 62. | Yanğından qorunma və boru-soba işləri | 2000 |
| 63. | Yanğından mühafizə sistemlərinin və vasitələrin quraşdırılması, texniki xidmət və təmiri | 6000 |
| 64. | Yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürməvəsaitlərinin təmiri və onlara xidmət, yanğınsöndürməvəsaitlərinin keyfiyyətinin bərpası | 10000 |
| 65. | Yanğından mühafizə binalarının, qurğularının, otaqlarının tikilməsi, yenidən qurulması və təmiri | 6000" |

[17] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2003-cü il tarixli 90 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 7, maddə 390**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli, 343 nömrəli qərarına 5 nömrəli əlavənin 10, 11, 12 və 13-cü bəndləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| 10. Yaşayış evləri | Fərdi, şəxsi, idarə tabeli, dövlət |
| 11. İctimai bina və qurğular | Mehmanxana, motel, kempinq, yataqxana, idarə, konstruktor və layihə təşkilatları binaları, ofis, bank, sığorta, arxiv, kitabxana, muzey və sərgi, istirahət mərkəzləri, konsert zalları, teatrlar, kinoteatrlar, filarmoniya, klub, stadion, açıq və örtülü idman zalları, körpələr və uşaq bağçaları, məktəblər, məktəb-internatlar, məktəbdənkənar müəssisələr, professional-texniki məktəblər, mütəxəssislərin hazırlığı, təkrar hazırlığı və ixtisaslarının artırılması üzrə tədris müəssisələri, institutlar, universitetlər, laboratoriya binaları, məişət xidməti binaları, topdan və pərakəndə satışmüəssisələri binaları, restoranlar, kafeteriya, barlar, stasionarlı, ambulator-poliklinika müalicə binaları, aptek, süd |

| | |
|---|---|
| | mətbəxi, müalicə vannaları, sanatoriyalar, sanatoriya-profilaktoriyalar, istirahət-sağlamlıq müəssisələri, sağlamlıq kompleksləri, bütün növ nəqliyyat üçün vağzallar, sərnişinlərə xidmət göstərən kontor və nəqliyyat agentlikləri, kassa pavilyonları, milli adət və ənənələrin yerinə yetirilməsi binaları, dəfn büroları, mənzil-istismar, yanğın depo və çox funksiyalı binalar |
| 12. Sənaye müəssisələri | İstehsalat binaları, sənaye müəssisələrinin qurğuları, inzibati-məişət, avtomobillərin saxlanması və xidmət üzrə, yük vəminik avtomobillərinin saxlanması üzrə açıq və örtülüdayanacaqlar, hidrotexniki qurğular, elektrik stansiyaları, sahil və dəniz neft-qaz çıxartma obyektləri, dəmir yolları, avtomobil yolları, dəmir və avtomobil yolları tuneli, metropolitenlər, magistral boru kəmərləri, şəhər və yaşayışməntəqələrinin ərazisindən keçən boru kəmərləri, aerodromlar, sənaye nəqliyyatı, qazanxana qurğuları, istilik xətləri, anbarlar, saxlama anbarları, soyuducular, neftin, neft məhsullarının və sıxılmış qazın yeraltı saxlama anbarları, yanğın depoları və sair |
| 13. Kənd təsərrüfatı müəssisələri | Kənd təsərrüfatı məhsullarının saxlanması və istehsalı üzrəbina, qurğu və otaqlar, istilikxanalar və parniklər, maldarlıq, quşçuluq və heyvandarlıq bina və otaqları, anbarlar, soyuducular |